# Prezident həqiqətləri dünyaya çatdırıb

**"Dekabrın 6-da Prezident İlham Əliyev ADA Universitetində "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda Azərbaycanın 30 illik tarixinə bir daha nəzər saldı, 44 günlük Vətən müharibəsi və bundan sonra Azərbaycan xalqının əldə etdiklərini təhlil etdi, 30 il ərzində çətinliklər, çatışmazlıqlar, illərlə icrası reallaşmayan qətnamələr barədə danışdı. Həqiqətləri bir daha dünyaya bəyan etdi".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Onun sözlərinə görə, Ermənistan tərəfindən illərlə işğal olunan ərazilərin azərbaycanlılara məxsus olduğu deyilsə də, bu istiqamətdə real bir işin görülmədiyi dünyaya da bəlli idi. Hətta bunun müqabilində beynəlxalq birlik Azərbaycanın bu problemi müharibə yolu ilə həll etməyinə qarşı da çıxırdı. Bəyan edirdilər ki, münaqişə ancaq sülh yolu ilə həll oluna bilər. Əvəzində isə heç bir iş görməyib, sadəcə Ermənistana istədikləri yardımı göstərirdilər. Amma sonunda Azərbaycan öz yolunu seçdi. Bu, hərb yolu idi və düşməni darmadağın edərək öz torpaqlarına sahib çıxdı. Təbii ki, bu ərazilərdə bütün tarixi, dini, mədəniyyət abidələri, yaşayış yerləri yerlə yeksan edilib. Azərbaycan 30 ildən sonra vətəndaşlarını geri döndərmək üçün bərpa və quruculuq işlərinə başlayıb. Qarabağ və Şərqi Zəngəzurda tikinti işləri gecə-gündüz davam edir və mühüm nailiyyətlər əldə olunub.

Dövlət başçısının çıxışının nikbin olduğunu deyən deputat bildirib ki, xalqımız bu quruculuq işlərində iştirak edir və Azərbaycan öz gücü ilə bunu həll etmək iqtidarındadır: "Azərbaycanın 2024-cü il üçün təsdiq etdiyi dövlət büdcəsində də işğaldan azad olunmuş ərazilərin bərpa və quruculuq işləri ilə bağlı milyardlarla manat ayrılıb. Çünki bu ərazilərdə hər cür şəraitə malik evlər, məktəblər, xəstəxanalar tikilir, infrastruktur yenidən qurulur ki, 30 ilin əzabından, qaçqın və köçkün həyatından sonra ora qayıdan sakinlər rahat yaşasınlar. Çətinliklər kimi rahat həyatın da nə olduğunu görsünlər".



Deputat qeyd edib ki, beynəlxalq forum Azərbaycanın gücünü bir daha göstərdi. Dövlət başçısı həm Qərb dövlətlərinin Azərbaycana münasibətini, həm də Azərbaycanın Qərbə münasibətini, ölkəmizin dünya dövlətləri ilə inteqrasiyasını, əməkdaşlığını, eyni zamanda çətinlikləri özü həll etmək iqtidarında olduğunu dünyaya bir daha bəyan etdi. Forumda iştirak edən nümayəndələr də Azərbaycanın haqq işini bir daha müdafiə edərək xalqın bu uğurlarını alqışladılar.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 10 dekabr, № 270.- S.8.